# AZƏRBAYCAN MİLLİ KİTABXANASININ ELMİN İNFORMASİYA TƏMİNATI SAHƏSİNDƏ LOGİSTİK İMKANLARININ TƏŞKİLİ PERSPEKTİVLƏRİ

**Xuraman Ağayeva**
*Biblioqrafiyaşünaslıq kafedrasının dosenti*
*khuraman_v@mail.ru*

***Xülasə:*** *Məqalədə kitabxana-informasiya fəaliyyətinin yeni idarəetmə sahəsi olan informasiya logistikasının mahiyyəti açılır, Azərbaycan Milli Kitabxanasında logistik imkanlar, logistikanın Milli kitabxananın keyfiyyətli idarə olunmasında, informasiyanın operativ ötürülməsində və elmin informasiya təminatında əhəmiyyəti əsaslandırılır.*
***Açar sözlər:*** *İnformasiya logistikası, virtual mühit, elmin informasiya təminatı, innovasiya fəaliyyəti, logistik sistemlər, informasiya axını, logistik menecer, biblioqrafik informasiya, biblioqrafik idarəetmə, logistika mərkəzi.*

Rəqəmsal mühitin günü-gündən artdığı, genişləndiyi müasir dünyamızda elmi yeniliklərin və yeni elmi-tədqiqat üsullarının, onun nəticələrinin istehsalata tətbiqi obyektiv zərurətə çevrilir. Artıq cəmiyyət elmin, yeni informasiya texnologiyalarının əhəmiyyətini çox gözəl anlayır və bilir ki, elm, yüksək texnologiyalar hansı ölkələrdədirsə güc də onlardadır. Bunu yaşadığımız 44 günlük Qarabağ müharibəsi də sübut etdi. Ən müasir hərbi texnika ilə mənfur düşmənimizə qalib gəldik. Əlbəttə bu sahədə hörmətli prezidentimizin uzaqgörən siyasətini xüsusi qeyd etmək lazımdır. Qarabağ müharibəsindəki tarixi qələbəmiz ölkəmizin həm siyasi, həm də hərbi sahədə gücünü sübut etdi, ölkəmizi dünya dövlətlərinə tanıtdı.

Rəqəmsal texnologiyaların kitabxana-informasiya müəssisələrinə siraət etməsi bu qurumları biliklər cəmiyyətinin ayrılmaz bir hissəsinə çevirirdi. Beləliklə də ənənəvi kitabxana prosesləri ilə yanaşı bir sıra yeni, elektron kitabxana-informasiya xidməti növləri, kitabxana işinə yeni yanaşma formaları, virtual istifadəçilərlə işləmək, kitab fondlarını zənginləşdirmək və toplanmış ehtiyatdan səmərəli istifadə üçün yeni metodologiyalar meydana gəlir. Elmi-texniki biliklərin sürətlə inkişaf etdiyi bir dövrdə kitabxana-informasiya işini yaxşılaşdırmaq, onun elm, informasiya, təhsil, tərbiyə və mədəniyyət funksiyalarını genişləndirmək, bu qurumları modernləşdirmək üçün elmi yanaşmanın, təcrübəyə əsaslanan ciddi nəzəri, elmi-tədqiqatların aparılmasına, bu tədqiqatların nəticəsinin ictimailəşdirilməsinə böyük ehtiyac yarandı. Bu qlobal problemin həlli üçün informasiya konsaltinqi, informasiya logistikası, informasiya menecmenti kimi yeni idarəetmə sahələri yarandı.

**Məsələnin qoyuluşu**: Texnologiya, təhsil və tədqiqat sahəsindəki irəliləyişlər kitabxana-informasiya xidmətində də dəyişiklikliyə və inkişafa səbəb olmuşdur. Artıq kitabxana-informasiya müəssisələri kolleksiya mərkəzi modelinə yox, xidmət mərkəzi modelinə keçməlidir. Kitabxana-informasiya müəssisələrində elmi-tədqiqat məhsullarının toplanmasına diqqət yetirməklə yanaşı, bu gün həm də kitabxanaların elmi prosesləri dərk etməsi və dəstəkləməsi, elmin informasiya təminatını həyata keçirə bilməsi əsasdır. Artıq kitabxanaların tədris, elmi tədqiqat proseslərinə diqqət yetirməsi, elmin informasiya təminatında fəal iştirak etməsi zərurətə çevrilmişdir. Tədqiqat Kitabxanaları Assosiasiyasının (ARL) 2014-cü ildə dərc etdiyi hesabatda kitabxanaların elmin informasiya təminatı sahəsində rolunun zəngin axtarış və tədqiqat ekosistemi çərçivəsində tərəfdaş kimi dəyişəcəyi nəzərdə tutulur. Dəyişən informasiya axtarışı üsulları və elmi ünsiyyət və tədqiqatın dəyişən təbiəti daha dinamik, ünsiyyətcil və əməkdaşlıq çərçivəsində, fərdiləşdirilmiş xidmət tətbiq etməyi tələb edir. Ən müasir səviyyəli informasiya xidməti göstərmək üçün sənəd-informasiya axınının operativ qəbul edilməsi və paylanması əsas məsələdir. Bu problemin həllində informasiya logistikasının xidmətlərindən yararlanmaq lazımdır.

Yeri gəlmişkən logistika məhsulun, əmtəənin, servizin müştərinin tələbatını ödəmək üçün hər hansı başlanğıc nöqtədən istehlak nöqtəsinə qədər olan hərəkətinin idarə edilməsi prosesinə deyilir.

Logistika sözünün etimalogiyası bir mənalı deyil. Belə ki, qədim yunan dilində logos-idrak, log-təffəkür, logismos-fikir hesablama planı, loqo-müzakirə etmək logistika-hesablamaların praktik aparılma mədəniyyəti kimi mənalarını bildirir. Antik dövrdə logistika ərzaqları, təchizatçıları nəqletmə və yerdəyişmə mənasını daşıyırdı və o dövr üçün riyazi hesablama alqoritmləri məcmusu başa düşülürdü. (https://az.wikipedia.org/wiki/Logistika)

Qədim Romada logistiklər legionerlərin yemək və yatacaq yerlətinin təşkili və məhsulun bölgüsü ilə məşgul olurdular. Qədim Yunanıstanda Afinanın maliyyə işlərini aparan dövlət qulluqçularının idarələri logisteriya adlanırdı. Arximed yaşadığı dövrdə cəmi 10 nəfər logistik oldugunu öz əsərlərində qeyd edirdi. Bizans İmperatoru Leetos (886-911) özünün "Müharibə bacarığının umumi təhlili" əsərində logistkani hərb sənətinin, hərb məharətinin kateqoriyası adlandırmışdır.

Fraznsız generalı Antuan Aurri hərbi hissənin idarə edilməsi sistemi strategiya, taktika və logistikaya ayırmış müharibə ilə bagli yazılarında ordunun təşkili, körpülərin tiklimesi, yolların çəkilməsi eləcədə ordunun ərzaqla təminatının idarə edilməsini logistika adlandırdı.

Ümumiləşdirilmiş şəkildə logistikaya aşağidakı şəkildə tərif vermək olar: Logistika-iqtisadi sistemdə, yəni idarə və müəssisələrdə, kitabxana-informasiya müəssisələrində material, əmək, maliyyə və informasiya axınlarının hərəkətinin planlaşdırılmasının təşkilidir.

XVII-XVIII əsrlərdə yaşamış riyaziyyaçi, fizik və dilşünas Q. Leybnis (1646-1716) logistika və logistk matematika terminlərinin nəticələrin hesablanması üçün hazırlanmış terminin sinonimi kimi məntiqi logistia adlandırmış-

dır. Bu termin riyaziyyatın məntiqlə bağlılıgıdır. 1904-cu ildə Cenevrede keçirilən fəlsəfə konfransında bu ifadə rəsmiləşdirilmişdir.

XX əsrin əvvələrində müharibə aparan və yamüharibəyə hazırlaşan hərbi hissələrin təchizatı nəticəsində hərbi sursat, nəqliyyat və ehtiyyat hissələrinin göndərilməsi, planlaşdirilmasi, idarə edilməsi, təminat işi məsələrində logistik metodlardan genis istifadə olunurdu.

XX əsrin 50-ci illərindən başlayraq hərb sahəsinə aid olmayan elmi və praktiki işlər arasında logistakadan istifadə olunmaga başlandı və bu məsələ ilə bağlı jurnallarda elmi məqalələr cap olundu.

1970-ci illərdən başlayaraq logistika termini bir sira olkələrin- İspaniya, Fransa, İtaliya, Böyük Brtaniya kimi ölkələrin lüğətlərinə daxil edildi. 1980-cı illərdə logistika termini Amerikada, 1990-cı illərdə isə rus dilinin terminologiyasına daxil oldu və iqtisadi sahələrdə geniş tətbiq olunmaga başlandı.

Bir elm sahəsi kimi logistika 1950-ci illərin əvvəlində ilk dəfə olaraq ABŞ da mulki sahədə formalaşmağa başladı. Logistikanın təkamülü baxımından XX əsrdə yaranmaqla onu bir necə tarixi inkişaf mərhələrinə bölmək olar.

Birinci mərhələ: 1920-1950-ci illəri əhatə edir ki, bu dövrü iqtisadi fikir dövrü kimi səciyyəndirirlər. Belə ki, bu dövrdə logistika biznes fəaliyyətindən kənarda idi və biznes fəliyyəti üçün əhəmiyyətsiz hesab olunurdu. Buna səbəb resursların idarə edilməsi zamanı xərclərin azaldılması ilə bağlı problemlərin aktuallıq kəsb etməməsi idi. Buna baxmayaraq məhsulların bölüşdürülməsi nəqliyyat tariflərinin artması, marketing konsepsiyalarının yaranması və tətbiqi logistkanın yaranmasına və logistik idarə etməyə zərurət yaradır, onun ilk rüşeymlərinin meydana gəlməsinə səbəb olurdu. Bu dövr üçün ABŞ-da hərbi logistikanın aktiv inkişafı ilə səciyyəvidir. Xüsusilə, 1950-ci illərin əvvəllərində ABŞ-da hərbi logistikanın əsasları formalaşdı.

Nəzəri baxımdan hərbi məsələrə logistik yanaşma özünün praktik həllini, ikinci dünya müharibəsində ikinci cəbhənin açılması zamanı tapdı. Bu zaman ilk logistik təşkilat və cəmiyyətlər meydana gəlməyə başladı. ABŞ-da təchizat agentlərinin birləşməsi nəticəsində Milli Assosiasiyanın yaranması buna misal ola bilər.

İkinci mərhələ 1950-ci illərin ortalarından 1970-ci ilə qədərki dövrü əhatə edir. Mütəxssislər bu dövrü logistikanın yaranması dövru kimi xarakterizə edirlər. İkinci dövr logistikanın nəzəri və prakriki nöqteyi nəzərdən tez inkişafı ilə xarakterizə olunur. Bu dövrdə istehlekçı tələblərinin, münasibətlərinin dəyişməsi, satış bazarın inkişafı, məsrəf amillərinin istehsala təsiri və onun yaranması, Kompüter texnolgiyasında baş verən tərəqqi, resursların formalaşması strategiyasındakı dəyişikliklər, hərbi sahədə əldə edilən təcrübənin təsiri logistikanın inkişafını sürətləndirən əsas amillərdir.

Logistik idarəetmə praktikasında qərb dövlətlərində alim və mütəxəssislərin əməli fəaliyyətlərini əlaqələndirə bilən çoxlu sayda logistik cəmiyyətlər, təşkilatlar və assosiasiyalar yaradılmışdır. ABŞ-da isə logistik problemlərlə məşğul olan "Amerika cəmiyyəti", "Menecment problemləri üzrə Amerika



Şurası", Britaniyada "Logistika institutu və bölüşdürmənin idarə edilməsi", İspaniyada "Logistika mərkəzi", Fransada "İstehsal logistika mərkəzi" kimi təşkilatlar yaranmışdır (11).

Logistika aşağıdakı yarımbölmələrə bölünür: Hərbi logistika, Biznes logistikası, Tədarük logistikası, Paylama logistikası, Satış logistikası, Nəqliyyat logistikası, Ehtiyat logistikası, Anbar logistikası, İnformasiya logistikası, Kompleks logistika, Ekoloji logistika, Qənaət logistikası, Şəhər logistikası və s.

Bu baxımdan çıxış edərək logistikanın bütün cəmiyyətə yayıldığını, bütün idarə və müəsssisələrə siraət etdiyini söyləmək olar.

Kitabxana-informasiya müəssisələrində "logistika" kitabxana-informasiya proseslərində elm, tədris, sənaye, istehsalat, mədəniyyət, sahələrində mövcud olan informasiya axınlarının idarə edilməsi, doğru informasiyanın, doğru zamanda, doğru istifadəçiyə çatdırılması prosesidir. Elmin sürətli inkişafı, onun öyrənilməsinə olan marağın kəskin artması informasiyanı ötürən və ya paylayan maddi-keçirici sistemlərin fəaliyyətinin səmərəliliyinin artırılması potensialı ilə bağlıdır ki, bu da logistik yanaşmanın istifadəsinə zəmin yaradır. Logistika müxtəlif xarakterli sənəd axınlarının informasiya-təhlil mərkəzləri tərəfindən qəbul edilməsi, onun analitik-sintetik cəhətdən işlənməsi, hazır məhsulun istehlakçıya və ya tələbatçıya çatdırılması arasındakı vaxt intervalını əhəmiyyətli dərəcədə azalda, informasiyanın əldə edilməsi və istifadəçiyə çatdırılma prosesini sürətləndirə bilər.

Logistika sahəsində fəaliyyət çoxşaxəlidir. Buraya ehtiyatların və ya resursların, kadrların idarə edilməsi, düzgün yerləşdirilməsi, informasiya sistemlərinin təşkili, kommersiya fəaliyyəti və s. məsələlər daxildir. Logistik yanaşmanın əsas yeniliyi və ya üstünlüyü üzvi qarşılıqlı əlaqə, yuxarıda göstərilən sahələrin vahid mərkəzə inteqrasiyasıdır. Logistik yanaşmanın məqsədi material və ya informasiya axınlarının sona qədər idarə olunmasıdır.

Maddi axınların, resursların idarə edilməsi həmişə iqtisadi fəaliyyətin vacib tərəfi olmuşdur. Əsas məqsəd, informasiya ehtiyacını doğuran səbəbləri satıcı bazarından alıcı bazarına keçidinin operativ təşkil olunmasıdır. Arıq informasiya da alınan və satılan olduğundan, yəni informasiyanın da əmtəəyə çevrildiyindən hər bir sahibkarlıq subyekti kimi kitabxana-informasiya müəssisələri də müstəqil olaraq konkret vəziyyəti qiymətləndirir, müəssisəyə gəlir gətirmək üçün qərarlar qəbul etmək məcburiyyətindədir. Dünya təcrübəsinin analiz etsək bu gün rəqabətli mübarizədə liderlər logistika sahəsindən bacarıqla istifadə edənlər, onun metodologiyasını yaxşı bilənlərdir.

Kitabxanalarda toplanan həm ənənəvi, həm də elektron formalı elmi informasiya resurslarının məqsədli şəkildə yığımı, sistemləşdirilməsi və nizamlanması nəticəsində yaranan informasiya ehtiyatları elmin informasiya təminatında mühüm vasitəyə çevrilir. Təsadüfi deyil ki, bu vacib resurslar kitabxana-informasiya müəssisələrində toplanılır, saxlanılır, onlar haqqında biblioqrafik informasiya yaradılır və ondan ictimai istifadə təşkil edilir.

Elmin informasiya təminatı tərkibi, mənbəyi, məxsusluğu, istifadə xarakteri, eləcə də məlumatın əlçatanlığı və yayılma üsuluna görə müxtəlif şəkildə mövcud olur. İnformasiya ehtiyatı isə sistemlilik, əhəmiyyətlilik, tamlıq, etibarlılıq, aktuallıq kimi keyfiyyət göstəriciləri ilə xarakterizə olunur.

Elmin idarə olunmasında informasiya təminatının rolu kimi Azərbaycan Respublikasında elmi tədqiqat fəaliyyətinin təşkili, əlaqələndirilməsi, elmi işçilərin, mütəxəssislərin, elmi xidmət sahəsi işçilərinin ən son informasiya və biliklərlə təminatı, elmi və elmi-texniki fəaliyyətin ekspertizası, elmi fəaliyyətin nəticələrindən istifadə, eləcə də əqli mülkiyyət hüququnun qorunması, elmi-tədqiqat fəaliyyətin tənzimlənməsi, alınan nəticələrin istehsalata tətbiqi kimi məsələlər elmi fəaliyyət sahəsinin idarə mexanizmini əks etdirir (12).

**Məsələnin izahı:** Hazırda Azərbaycan cəmiyyətində elmi-tədqiqat müəssisə lərində, elmi qurumlarda idarəetmənin və aparılan elmi-tədqiqat işlərinin səmərəliliyini yüksəltmək, onların fəaliyyətlərini əlaqələndirmək, istiqamətləndirmək, ümumdünya elektron informasiya məkanına inteqrasiya məqsədilə elmi fəaliyyətin müasir tələblərə uyğun yenidən qurulması kimi aktual məsələ qarşımızda durur.

Bu sahədə və Azərbaycan Milli Kitabxananın və Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyətini xüsusi qeyd etmək lazımdır.

AMEA-da bu istiqamətdə həyata keçirilən layihələrdən biri də "e-elm"-dir. Ölkədə formalaşdırılan e-hökümətin tərkib hissəsi olan e-elmin əsas məqsədi aparılan elmi-tədqiqatların inteqrasiyasına nail olmaqdır. Layihə üzrə AMEA İnformasiya Texnologiyaları İnstitutunda müxtəlif işlər görülür. Onlardan biri də müasir texnologiyalar əsasında elmin informasiya təminatının yaradılması, müasir dünya səviyyəsinə uyğunlaşdırılmasıdır.

Burada yaradılan Elmi Problemlər Reyestri (EPR) sistemi elmi-tədqiqatların təşkilində, əlaqələndirilməsində, qiymətləndirilməsində, həmçinin problem şuralarının fəaliyyətində müstəsna rol oynayır.

İnformasiya Texnologiyaları İnstitutunda yaradılan Elmi Problemlər Reyestri (EPR) sistemi elmi problemlərin çeşidlənməsi, elmi tədqiqatların əlaqələndirilməsi, elmi tədqiqatlarda təkrarçılığın aşkarlanması və s. məsələlərin həllində də idarəetmə qərarlarının formalaşdırılması və qəbuluna dəstək verəcək və ikinci sistem isə elmi tədqiqatların nəticələrinin sürətlə yayılmasına imkan verəcəkdir (12).

Elmin informasiya təminatında Azərbaycan Milli Kitabxanasının da böyük xidmətləri vardır. Azərbaycan Milli Kitabxana nəinki Qafqazda, yerləşdiyimiz Avropa qitəsində, eləcə də bütün dünyada şöhrət tapan ən böyük milli kitabxanalardan və ən iri kitabsaxlayıcılardan biridir.

Milli Kitabxana kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq və kitabşünaslıq sahəsində aparıcı müəssisə, ölkənin bütün kitabxanaları üçün elmi-metodiki mərkəz, oxuculara kompleks kitabxana-biblioqrafiya, informasiya xidməti göstərmək, kitabxanalararası abonement, milli və tövsiyə biblioqrafiyası, beynəlxalq və ölkədaxili depozitar mərkəz funksiyalarını yerinə yetirir.



Azərbaycan Milli Kitabxanası öz fəaliyyətini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin mədəniyyət, elm, təhsil, informasiya texnologiyaları və digər müvafiq sahələrə dair imzaladığı fərman və sərəncamlar, dövlət proqramları, Nazirlər Kabinetinin, Mədəniyyət Nazirliyinin qərarları, göstəriş və tapşırıqları, eləcə də mövcud qanunvericiliyə uyğun olaraq qurur, ölkədə elm, təhsil, mədəniyyətin inkişafı, milli-mənəvi dəyərlərimizin, kitab və mütaliənin təbliği ilə əlaqədar bir sıra əhəmiyyətli layihələr həyata keçirir. Kitabxana Azərbaycan gerçəkliklərinin dünyada tanıdılması istiqamətində, xüsusilə də Qarabag müharibəsi, Xocalı faciəsi, 20 Yanvar hadisələri barədə dünya ölkələrinə mütamadi olaraq informasiya göndərir (10).

M.F.Axundov adına Milli Kitabxana öz işini dünya səviyyəsinə uyğunlaşdırmaq üçün informasiya logistikasının imkanlarından bacarıqla istifadə edir.

İnformasiya logistikası isə kitabxanada mövcud olan informasiya resurslarının tələbatçı sorğusu əsasında hazırlanması və ən qısa zamanda ona catdırılması prosesindən ibarətdir. Bu proses ənənəvi formada da ola bilər, rəqəmsal formada da. İnormasiya logistikası anlayışına informasiyanın komplektləşdirilməsi, hazırlanması və təhlikəsiz və operatv catdırılma da daxildir. Kitabxana logistikasına tələb olunan informasiyanın doğru olması, səhv olduqda yenisinin yaradılıb istifadəçiyə operativ catdirilması məsələri də aid edilir. Bu zaman "İstifadəçi hər zaman haqlıdır" prinsipinə əməl olunur.

Konseptual baxımdan informasiya logistikasının müasir nəzəriyyələri aşağıdakı metodologiyalara əsaslanır:

1. Sistemli təhlil, analitik analiz
2. Kibernetik yanaşma,riyazi metodlarla informasiyanın ən qısa zamanda hazırlanması.
3. Əməliyyatların tədqiqi, ən əhəmiyyətlisinin seçilməsi.
4. İqtisadi-riyazi modelləndirmə, ən mükəmməl və operativ ötürülmə vasitəsinin seçilməsi (13).

Kitabxana-informasiya logistik sistemlərin təhlili və sintezi zamanı yaranan konkret problemlərin həlli üçün müxtəlif iqtisadi səviyyələrdə proqram-məqsədli planlaşdırma, funksional sistemli təhlil, informasiya resurslarının analitik analizi, proqnozlaşdırma, modelləndirmə və s. kimi idarəetmə metodlarından müfəssəl bir formada istifadə olunur.

Kitabxana informasiya logistikasının ümumi vəzifələri dedikdə- qarşıda duran məqsədlərə çatmaq üçün hansı işlərin, hansı ardıcıllıqla, nə vaxt və harada icra edilməsi nəzərdə tutulur. Kitabxanalar informasiya resurslarının idarə edilməsi üçün özünün ümumi və xüsusi xarakterli logistik vəzifələrini müəyyənləşdirməlidir ki, onlar da aşağıdakılardan ibarətdir:

1. Logistik konseptual ideya-mövcud şəraitdə ən az mümkün xərclərlə kitabxananın kitabxanalar arasındakı rəqabətə uyğunlaşmasıdır ki, daha çox istifadəçi cəlb etmək uçun informasiya resurslarının artırılması və rəqiblər üzərində iqtisadi üstünlüklərə nail olmaqdan ibarətdir.

2. Logistikanın ümumi məqsədi-yüksək keyfiyyətli məhsul-kitabxana-informasiya resursu göndərmələrini təmin edən informasiya ehtiyatı, maliyyə, kadr və s. axınların funksional inteqrativ sistemini yaratmaqdır.

3. Kitabxana logistikanın xüsusi vəzifəsi:

– Ehtiyat, informasiya, maliyyə, kadr və s. axınların arasında uyğunluğun təmin edilməsi.

– Sənəd axınlarının dispetçerləşdirilməsi və onun fasiləsiz informasiyaya çevrilməsi.

– İnformasiya resursunun fiziki bölüşdürülməsi, strategiyası və texnologiyasının müəyyənləşdirilməsi

– İnformasiya resurslarının əldə olunması üzrə əməliyyatların konkret alqoritmlərinin hazırlanması,

– İnformasiya ehtiyatlarının idarə edilməsi prosesinin optimallaşdırılması,

– İnformasiya resursların öturulməsi müddətinin maksimum azaldılmasına nail olunması.

Latın sözü olan informasiya müxtəlif məsələlər haqqında xəbər vermək, hər hansı fakt, hadisə barəsində məlumat vermək mənasını daşıyır. Bu məsələyə istər respublikamızda, istərsədə xarici ölkələrdə nəzəriyyəçi alim və mütəxəssislər tərəfindən müxtəlif yanaşmalar mövcuddur. Rus alimi Moskva Dövlət Universitetinin professoru, keçmiş SSRİ EA-nın akademiki, ABŞ Milli Akademiyasının, London Kral cəmiyyətinin, Fransa (Paris) akademiyasının həqiqi üzvü, riyazi logikanın, informasiya nəzəriyyəsinin yaradıcılarından biri Andrey Nikolayeviç Kolmoqorovun fikrincə "İnformasiya-qeyri məxsusi, ehtimallı anlayışdır. Lakin real vasitələrlə, rabitə kanalları vasitəsilə verilə (ötürülə) bilər"(14).

Umumiyyətlə isə informasiya dedikdə, saxlanma, göndərilmə və ötürülmə obyekti olan məlumatlar başa düşülür. Bütün bu qeyd olunanlardan fərqli olaraq akademik N.N.Moiseev informasiyanı "tədqiq edilən obyekti əhatə edən ətraf mühit və ya öyrənilən hal haqqında əldə olunan məlumatlar toplusu" kimi xarakterizə edir.

Göstərilən bu təriflər informasiyanın mahiyyətini düzgün izah edir. Buradan belə qənaətə gəlmək olar ki, hər bir informasiya məlumatdır, lakin hər bir məlumat informasiya deyil. İnformasiya faktları, hadisələri daha real, obyektiv əks etdirməli, tarixi əsası olmalı, gələcək nəsillərə ötürulmə, saxlanma qabiliyyəti olmalıdır. (X.A)

İnformasiya insanlara müxtəlif vasitələrlə ötürülür: danışıq, mətn, təsvir formalarında verilə bilər və onları müxtəlif daşıyıcılarda (kitablarda, jurnallarda, sənədlərdə, çertyojlarda, rəqəmsal daşıyıcılarda və s.) qeyd etmək mümkündür.

İnformasiya cəmiyyət üçün ən zəruri və ən mühüm resurs növü hesab olunur.

Başqa sözlə, informasiya axınları istənilən səviyyəli logistik sistemin hüdudları daxilində bu və ya digər logistik əməliyyatların yerinə yetirilməsi zamanı yaranır və yaranma mənbəyindən son istehlakçıya qədər məlumatların yazılı və şifahi daşıyıcısı kimi çıxış edir.



Beləliklə, informasiya axınları adı altında logistik əməliyyatların idarə edilməsi və ona nəzarət üçün logistik sistem tərəfindən istifadə olunan, logistik sistemlə xarici mühit arasında əlaqələri təşkil edən məlumatlar məcmusu başa düşülür.

İnformasiya axını vaxt vahidi ərzində işlənən, saxlanılan və ötürülən informasiyanın kəmiyyəti ilə ölçülür.

Logistik informasiya sistemləri altı əsas prinsip üzərində qurulur.

1. İnformasiyaların istifadəçilər üçün vacib və yararlı olması. Logistik menecer logistik qərarların qəbul edilməsi üçün ona lazım olan formada zəruri və kifayət qədər tam informasiyalara malik olmalıdır.

2. Dəqiqlik. İlkin informasiyaların dəqiqliyi düzgün qərarların qəbul edilməsi üçün prinsipial əhəmiyyət daşıyır. Odur ki, logistik informasiya sistemləri informasiyaların dəqiqliyini xarakterizə etmək məqsədilə onların qarşısında müvafiq tələblər qoyur.

3. Sorğuların vaxtlı-vaxtında qəbul olunması və logististik menecerlərə ötürülməsi. Logistik informasiyalar logistik texnologiyanın tələblərinə uyğun olaraq menecerlərə "dəqiq və vaxtında" daxil olmalıdır. İnformasiyaların vaxtı-vaxtında daxil olması, onun işlənməsi, biblioqrafik informasiya formasına salınması bütün logistik funksiyalar kompleksi üçün praktiki mahiyyət kəsb edir.

4. İstiqamətlilik. Logistik informasiya sistemlərində informasiyalar logistik funksiyaların yerinə yetirilməsi üçün yüksək səviyyəli və peşəkar kadrların hazırlanması, optimal tədarükat və satış bazarlarının tapılması, effektiv bölgü kanallarının seçilməsi, birbaşa uzunmüddətli təsərrüfat əlaqələrinin yaradılması logistik xərclərin azaldılması, məhsulların keyfiyyətinin və servis xidmətinin yüksəldilməsi üçün əlavə imkanların aşkar edilməsinə istiqamətlənməlidir.

5. Çeviklik. Logistik informasiya sistemi daxilində dövr edən informasiyalar konkret istifadəçilər-kitabxananın işçi heyəti, logistik vasitəçilər və son istehlakçılar üçün əlverişli olan formaya salınmalıdır.

6. İnformasiyanın yararlılıq formatı. Logistik informasiya sistemlərinin kompüter və telekommunikasiya şəbəkələrində tətbiq edilən məlumat formatları texniki vasitələrdən maksimum məhsuldar istifadə edilməsinə şərait yaratmalıdır. Sənədlərin forma və növləri, kağız sənədlərində mövcud olan rekvizitlər, məlumatların ölçüləri və digər parametrlər informasiyaların maşınla işlənməsini asanlaşdırmalıdır.

M.F.Axundov adına MİLLİ Kitabxana informasiya logistikasının imkanlarından səmərəli istifadə etməyi bacarır. Respublikamızda ən zəngin informasiya ehtiyatlarının M.F.Axundov adına Milli kitabxanada toplandıgını nəzərə alaraq logistika mərkəzi funksiyasını yerinə yetirə bilər və burada logistik menecer ştatı yaradıla bilər.

Pandemiya şəraiti ilə əlaqədar kitabxananın oxucular üçün bağlanması səbəbindən istifadəçilərə kitabxana-informasiya xidmətini virtual rejimdə təqdim etmək üçün kitabxananın saytında yeni "Onlayn xidmətlər" pəncərəsi yaradılmışdır. Onlayn xidmətlər pəncərəsinin "Biblioqrafik sorğu", "Sənədlərin

sifarişi və elektron çatdırılması", "Metodiki xidmət", "Virtual sərgi" bölmələri daim aktivdir və istifadəçilərin elektron informasiya tələbatının ödənilməsində böyük əhəmiyyət kəsb edir. 2020-ci ildə "Sənədlərin sifarişi və elektron çatdırılması" bölməsi vasitəsilə **62850** istifadəçiyə **75523** resurs göndərilmişdir. Azərbaycan Milli Kitabxanası bölgələrdə yaşayan oxucuların informasiya tələbatını ödəmək üçün daima böyük səy göstərir. Bu xidmət pandemiya dövründə də Milli Kitabxana tərəfindən davam etdirilmişdir. "Sənədlərin sifarişi və elektron çatdırılması" bölməsi vasitəsilə şəhər və rayon MKS-lərinə 2077 elektron resurs göndərilmişdir.

Xüsusi karantin rejimi dövründə Milli Kitabxananın virtual xidmət sistemində zəngin tammətnli elektron resurslara malik olan "Elektron kataloq və elektron kitabxana" bölməsinin "onlayn oxu" düyməsindən il ərzində **2.996.278** nəfər istifadə etmişdir. Bütövlükdə, (anl.az) saytına daxil olanların sayı isə müvafiq dövrdə **3.605.400** nəfər olmuşdur (10).

2020-ci ilin mart ayının 11-dək ənənəvi oxucu davamiyyəti 45120, ədəbiyyat verilişi isə 673202 olmuşdur. Həmin ildə Milli Kitabxananın saytı yenilənmişdir. Yeni "millikitabxana.az" domen adı alınmışdır. Köhnə saytda olmayan bir sıra yeniliklər edilmişdir. O cümlədən, mobil cihazlar üçün (responsive) görüntü dizaynı yenilənmişdir, dissertasiyaların, dövri mətbuatın elektron kitabxanaları yaradılaraq dissertasiyaların, qəzet və jurnalların onlayn oxunması təmin edilmişdir, sistem müasir proqramlaşdırma platformasında yığılmışdır, əsasən php-nin sonuncu versiyası istifadə olunaraq Yii2 framework tətbiq edilmişdir (10).

Ümid etmək olar ki, Azərbaycan kitabxanalarının idarə olunmasına düşünən beynlərin cəlb olunası, informasiya logistikasının imkanlarından səmərəli istifadə olunması, informasiya konsultantı ştatının yaradılması, konsaltinq xidmətinin təşkil olunması kitabxana-informasiya xidmətinin səviyyəsini yüksəldəcək və kitabxana-informasiya müəssisələrini cəmiyyətin "olmazsa olmaz"ına çevirəcəkdir.

**Nəticə.** Aparilan tədqiqatı yekunlşdırarkən belə qənaətə gəlmək olar ki, müasir dövrdə İnformasiya Kommunikasiya Texnologiyaları digər sahələrdə olduğu kimi elmi-tədqiqat işinin fəaliyyəti, onun təşkili və idarə olunması, elmin informasiya təminatı məsələləri üçün də geniş imkanlar açır. AMEA İnformasiya Texnologiyaları İnstitutunda bu məqsədlə müxtəlif lahiyələr həyata keçirilir.

Dünya ölkələrin təcbəsinə nəzər salsaq görərik ki, Böyük Britaniyanın Tədqiqat və İnnovasiya (UK Research and Innovation, UKRI) təşkilatı tərəfindən yaradılmış Gateway To Resarch veb-saytı dövlət tərəfindən maliyyələşdirdirilən tədqiqatlar haqqında məlumatların axtarışı və təhlil edilməsi saytıdır. Belə bir saytın Azərbaycanda yaradlması mühüm məsələdir. Sözsüz ki, respublikamızda elm sahəsində idarəetmə qərarlarının qəbul edilməsinə informasiya dəstəyinin təmin edilməsinin tədqiqi e-elmin aktual məsələsi kimi davam etdiriləcəkdir.



Hazırda informasiya axınlarına nəzarət etmək, bu axınların istiqamətləndirmək, logistik əməliyyatların tələbi baxımından müəyyən dəyişiklik aparmaq, məlumatların etibarlı və dolğunluğunu təmin etmək,onları olduğu kimi saxlamaq və ötürmək üçün logistik informasiya mərkəzləri yaradılır. Belə informasiya mərkəzlərinin əsas vəzifəsi ayrı-ayrı logistik mərhələlərdən alınmış məlumatları toplamaq və onları sintez etmək və onun operativ ötürülməsi üçün informasiyaların tələb olunan formaya salınmasından ibarətdir. İnformasiya mərkəzi ilə informasiya mənbəyi arasında əlaqələr dəqiq, çevik, operativ və əks əlaqəli ola bilər.

Azərbaycan kitabxanaları içərisində M.F.Axundov adına MİIli Kitabxana informasiya logistikasının imkanlarından səmərəli istifadə etməyi bacarır. Həm də Milli Kitabxana Azərbaycanda mövcud olan bütün tip kitabxanalar üçün metodiki mərkəz olduğundan respunlikamızda informasiyanın idarə olunmasını təşkil edir, Azərbaycanı xarici ölkələrdə tanıdır. Hazırda Milli Kitabxana tam gücü ilə fəaliyyət göstərir, pandemiya dövründə olan boşluğu doldurmaq üçün yeni layihələr həyata keçirir.

Respublikamızda ən zəngin informasiya ehtiyatlarının Milli kitabxanada toplandığını nəzərə alaraq bu kitabxana logistik informasiya mərkəzi funksiyasını yerinə yetirə bilər və burada logistik menecer və konsultant ştatının açılması vacib hesab oluna bilər.

**İstifadə olunmuş ədəbiyyat siyahısı:**


1. Ağayeva X.T. Kitabxana innovasiyaları və müasir dünyada kitabxanaların inkişafının perspektivləri //Kitabxanaşünaslıq və biblioqrafiya:elmi nəzəri və təcrübi jurnal.-2015.-№2.-32-38.
2. Ağayeva X.T. Kitabxana-informasiya sisteminin idarə olunmasının yeni növu-informasiya konsaltinqi //Kitabxanaşünaslıq və biblioqrafiya:elmi nəzəri və təcrübi jurnal.-2020.-№1.-55-62.
3. Azərbaycan Kitabxana Ensiklopediyası //Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, M.F.Axundzadə adına Milli Kitabxana. Bakı, 2015.- 632 s.
4. İsmayılov N.İ., Ağayeva X.T.Kitabxanalarda biblioqrafik işin təşkili və metodikası:Dərs vəsaiti.-Bakı:Bakı Universiteti nəşriyyatı,2018.-181 s.
5. Logistika: Dərslik / Redaktor B.Ə. Anikin.-Moskva: INFRA-M, 1997.-327 s.
6. Logistika əsasları: dərslik / Ed. L. B. Mirotin və V.İ.Sergeev.-Moskva: INFRA-M, 1999.- 200 s.
7. Rodnikov, A.N. Logistika: terminoloji lüğət / A.N. Rodnikov.-Moskva: İqtisadiyyat, 1995 .-251 s.
8. Səmərəli logistika / L.B. Mirotin, I.E. Daşbaev, O.G.Poroshina.-Moskva: İmtahan Nəşriyyatı, 2003.-160 s.
9. Tkaliç A.İ. Konsaltinq xidməti / Tərc.ed:H.Nərimanoğlu,V.Kazımzadə.-Bakı, 2011.-216 s.
10. http://anl.az/new/az/result/40
11. https://az.wikipedia.org/wiki/Logistika

12. http://mesafedenmekteb.edu.az/ru/component/k2/540-e-elmin-informasiya-teminat-meselelerine-hesr-olunmu%C5%9F-seminar-kecirildi.html
13. https://cammeteo.ru/az/sushchnost-informacionnoi-logistiki-informacionnaya-logistika/
14. https://ru.wikipedia.org/wiki

**X.Агаева**

**Перспективы организации материально-технических возможностей Национальной библиотеки Азербайджана в сфере информационного обеспечения науки**

***Аннотация:*** *В статье раскрывается сущность информационной логистики, которая является новым направлением управления библиотечно-информационной деятельностью, логистические возможности Национальной библиотеки Азербайджана, значение логистики в управлении качеством Национальной библиотеки, оперативная передача информации и информационное обеспечение науки.*

***Ключевые слова:*** *информационная логистика, электронная наука, виртуальная среда, информационное обеспечение науки, инновационная деятельность, логистические системы, информационные потоки, менеджер по логистике, библиографическая информация, библиографический менеджмент, логистический центр*

**X.Agayeva**

**Prospects of the organization of logistic possibilities of the National Library of Azerbaijan in the field of information provision of science**

***Abstract:*** *The essence of information logistics, which is a new management area of library-information activities, is disclosed in the article, the logistics capabilities of the National Library of Azerbaijan, the importance of logistics in the quality management of the National Library, the prompt transfer of information and the information provision of science are substantiated.*

***Keywords:*** *İnformation logistics, e-science, virtual environment, information provision of science, innovation activity, logistics systems, information flow, logistics manager, bibliographic information, bibliographic management, logistics center*

***Rəyçi:*** *p.ü.f.dok., dos.* ***S.İsmayılova***